Bakı və Şuşa şəhərlərində 8-9 iyul 2022-ci il tarixlərində Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının rəhbərlərinin müşavirəsində ölkəmizin xarici siyasət prioritetləri, müasir dövrdə çağırışlar və bu çağırışların qarşısının alınması istiqamətində görülən tədbirlər, Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində rolu, ikitərəfli və çoxtərəfli platformalarda iştirakı, əməkdaşlıq perspektivləri kimi mövzular haqqında fikirlər səsləndirilib. Müşavirədə Prezidentin Şuşa şəhərində xüsusi nümayəndəsi Aydın Kərimov bildirib ki, Şuşada artıq 23 binadan ibarət ilk yaşayış kompleksinin inşasına başlanılıb. Gələn ilin sonunda ilk sakinlərə - şuşalılara evlərinin açarları təqdim olunacaq. Zəngilan rayonunda "Ağıllı kənd" layihəsi olan Ağalı kəndinə birinci mərhələdə bu ayın sonuna qədər 41 ailənin köçürülməsinin həyata keçiriləcəyini diqqətə çatdıran Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev qeyd edib ki, bununla bağlı artıq kifayət qədər böyük tədbirlər görülür. Ayın sonuna qədər məcburi köçkünlər həmin evlərə qayıdacaqlar.

Hazırda dövlətimiz tərəfindən Qarabağın işğaldan azad edilən bütün ərazilərində yenidənqurma işləri sürətlə davam etdirilir. Şəhərlərin yeni baş planları hazırlanır, yollar çəkilir, kommunal infrastrukturun bərpası istiqamətində genişmiqyaslı zəruri tədbirlər həyata keçirilir. Artıq Böyük Qayıdış reallaşır. Ümumiyyətlə, Qarabağda müasir infrastrukturun yaradılması bölgənin inkişafının əsas strateji istiqamətlərindən biridir. Çünki bunsuz ərazinin sosial-iqtisadi inkişafını təmin etmək mümkün deyil. Bütün bunlar həm də Qarabağ bölgəsinin bərpa edilməsi, yüklərin daşınması, turizmin inkişafı üçün geniş imkanlar açacaq. Əzəli və əbədi Qarabağımız tamamilə yenidən qurulur, dirçəldirilir, cənnətməkana çevrilir. Prezidentin tapşırığı ilə sosial, iqtisadi, humanitar, hüquqi və digər məsələlər üzrə yaradılan işçi qrupları, hazırlanan Strateji Fəaliyyət Planı əsasında işlər bütün istiqamətlər üzrə planlı və kompleks yanaşma əsasında həyata keçirilir. Bu işlərin reallaşdırılması məqsədilə Əlaqələndirmə Qərargahı yaradılıb və bütün aidiyyəti dövlət strukturları Qarabağın bərpası tədbirlərinə cəlb olunub.

İşğaldan azad edilmiş ərazilərimizə səfərləri ilə Prezident İlham Əliyev, həmçinin, dünyaya mesaj verir ki, biz tarixi ədaləti 44 günə bərpa etdik, o torpaqların əsl sahibləri bizik və biz artıq qayıdırıq. Hər səfəri düşmənin 28 illik əsarətindən sonra dağıdılmış, məhv edilmiş ərazilərimizdə infrastruktur layihələrin açılışı, yenidən qurulması və bərpası ilə yaddaşlara yazılır. Bu həm də Böyük Qayıdış üçün iqtisadi potensialımızın yetərli səviyyədə olmasını dünyaya nümayiş etdirir.

Bu gün böyük quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzurda yeni avtomobil və dəmir yolları, hava limanları, körpülər, tunellər, elektrik və su xətləri, müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, su-elektrik stansiyaları tikilir. Qarabağın tacı Şuşa şəhərində də quruculuq işləri aparılır. Şəhərin baş planı əsasında tikiləcək yeni yaşayış kompleksinin təməli qoyulub. Şuşa şəhərinin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Mədəniyyət paytaxtında həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulur və tezliklə keçmişdə olduğu kimi, Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək. Dövlət tərəfindən Böyük Qayıdış planına uyğun olaraq məcburi köçkünlərin doğma yurd-yuvalarına ən qısa zamanda qayıtması üçün bütün imkanlar səfərbər edilib. Prezident İlham Əliyevin növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair müəyyənləşdirdiyi 5 milli prioritetin bir bəndi məhz işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış planının reallaşması prosesidir. Bu istiqamətdə çox mühüm infrastruktur layihələr reallaşdırılır. Onların içərisində yaşayış məntəqələrinin bərpası nöqteyi-nəzərindən Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərində aparılan quruculuq işləri xüsusi diqqətəlayiqdir.

**(davamı 8-ci səhifədə)**

# Əzəli və əbədi yurdumuz Şərqi Zəngəzura yenidən həyat qayıdır

(əvvəli 1-ci səhifədə)

Artıq birinci "Ağıllı kənd"in inşası başa çatıb və prinsip etibarilə oraya köçün həyata keçirilməsi üçün bütün infrastruktur imkanlar yaradılıb. İndi ikinci kəndlə də bağlı işlər eyni templə həyata keçirilir. Cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur hər gün daha da canlanır, öz tarixi və əbədi sakinlərini qarşılamağa hazırlaşır. Bu il Müstəqillik Günü ərəfəsində Ağalı kəndində "Ağıllı kənd" layihəsinin açılışı ilə "Böyük Qayıdış"a start verildi. Bu isə onu göstərir ki, 2022-ci il Azərbaycan tarixinə böyük qayıdış ili kimi düşəcək. Mərhələ-mərhələ bütün hədəflərimizə çatırıq. İşğaldan azad olunmuş bütün ərazilərimizdə daha gözəl, daha yaraşıqlı və ağıllı kəndlər, şəhərlər, qəsəbələr salınır. Dövlət başçısının Zəngilan rayonunda "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində səsləndirdiyi fikirlər onu deməyə əsas verir ki, "Böyük Qayıdış"a gedən yol uzaq deyil və bu tarixi yola ilk çıxan Ağalı kəndinin sakinləridir.

2022-ci il may ayının 27-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə Zəngilan rayonuna səfərlərində artıq tikilib başa çatdırılmış, ilk "Ağıllı kənd" layihəsi əsasında inşa edilmiş və ilkin olaraq öz sakinlərini qəbul etməyə hazır olan Ağalı kəndində olmuşlar. Kənddə sakinlərin tam rahat yaşaması üçün bütün şərait yaradılmışdır. Kənd meydanında



otuz ilə yaxın müddətdə işğal altında qalmış əzəli torpaqlarımızda sülhün əbədi təmin olunmasını təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi salınıb. Ölkə başçısı və Birinci vitse-prezident kənddə aparılmış işlərlə tanış olan zaman sakinlərlə də görüş keçirmişdir. Kənd sakinləri yaradılmış yüksək şəraitə doğma yurdlarına ilk növbədə qaytarıldıqlarına görə Azərbaycan Prezidentinə, Birinci vitse-prezidentə minnətdarlıqlarını ifadə etmişlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ağalı kəndindən birbaşa dünyanın bir çox ölkələrində fəaliyyət göstərən əslən azərbaycanlı olan həkimlər və digər peşə sahibləri ilə videoformatda görüş keçirmişdir. Görüş zamanı İlham Əliyev onları işğaldan azad edilmiş Azərbaycan ərazilərində görülən işlər barədə məlumatlandırmış və buradakı vəziyyəti əyani şəkildə görmələri üçün Azərbaycana dəvət etmişdir.

Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması, bioqaz enerjisindən istifadə kimi amillər bu konsepsiyanın tərkib hissələridir. Dövlətimizin başçısı və Birinci xanım kənd meydanında yaradılmış Dövlət Xidmətləri Mərkəzi ilə tanış oldular. Bundan sonra Ağalı kəndində "Azərpoçt" MMC-nin rayon şöbəsi, ASAN Xidmət Mərkəzi, DOST Mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi fəaliyyət göstərəcək. Kənddə "Kapital bank"ın Zəngilan filialı, "Gillmed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi, uşaq bağçası və kənd orta məktəbi, kənd təsərrüfatı təyinatlı laboratoriyalar, baytarlıq və bitki mühafizə idarələri və digər ictimai obyektlər sakinlərin istifadəsinə veriləcək.

Beləliklə, Azərbaycan dövləti Qarabağda tarix yazmaqda davam edir. Azad edilmiş ərazilərimiz yenidən qurulur, sürətlə bərpa edilir. Bu tarixi proseslərə şahidlik etmək, azad Qarabağın yenidən qurulmasını, keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıtmasını izləmək Azərbaycan xalqına böyük qürur verir. Əminliklə söyləmək olar ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə "Ağıllı kənd" layihəsinin işğaldan azad olunmuş ərazilərdə tətbiqi Böyük Qayıdış proqramının icrasında davamlı olaraq səmərəli nəticələr verəcək. Bütün işlər Azərbaycan Prezidentinin ciddi nəzarəti altında, mərkəzləşdirilmiş qaydada, sürətlə və ən müasir texnologiyalar əsasında aparılır. Bu onun göstəricisidir ki, Prezident və xanımı azad edilmiş ərazilərin bərpasında müasirliyə son dərəcə böyük önəm verir. Azərbaycan xalqı öz tarixi torpaqlarına sahib çıxır, şəhərlərimiz, kəndlərimiz necə böyük qəhrəmanlıq və qətiyyətlə işğaldan azad edilibsə, eyni əzm və həvəslə də yenidən qurulur.

**M.MUSTAFAYEV,**
**"Respublika".**